

Kim deyir ki, Sevgi yaxşıdır?..
Onu Yaratdıqca görəcəksən!

R.Bahar SONAM

Sevgi Tanrı İşığıdır!

R.Bahar SONAM

ƏFSANƏ...

Bakı - 2018

İLK...

Mənim
ilk kəs
öz həqiqətim oldu.
Həqiqətim –
nəfəsim...
dilim...
səsim....
SEVGİ...
Amma,
lal.
Kaş...
Tanrı,
ona həqiqət –
nəfəs...
dil...
verəydi.
Məni görəydi –
nəfəs alaydı...
mənim üçün.
Dil açaydı...
danışaydı mənimlə.

Səslərdi...
çağırardı görüşünə...
adı ilə...
adımla.
Mən dünyaya
bu arzu ilə doğuldum,
amma,
bu neməti dadmadım.
Sadəcə,
HİSSLƏR...
roman yaratdı.
Hətta,
xəyalını belə...
yaratmadı.
”İşığ...”ını
aldatmadı.
Yanqısı...
canlı həyatdı.
Azərbaycan...
və
köksündə yananı...
İŞIQ!

ARBS.
24.04.2016.

ƏFSANƏ...

Bir Şərq məmləkəti
var imiş...
Qızıl Sarayı...
Şahı çox zalım,
qan içən imiş.
Tanrı onu
cazalandırmış,
günahlarını,
yeganə oğlunun
boynuna tökmüş.
Və gənc oğlu,
uzun illər,
yatağa düşmüş...
sanki,
əbədi yuxuya getmiş.
Bu qəmli hekayə
ellərə,
obalara yayılmış.
Yeddi il ötmüş...

Bu illər ərzində,
zalım Şah,
cümlə-aləmə
səs saldırıb,
fərman verdirmiş:
- Oğluma çarə tapan...
yüksək ənam,
bəxşiş alacaq.
Çarəsin tapmasa...
edam olunacaq.
Yeddi il ərzində,
yeddi min loğman
edam edildi,
bəlkə də.
Və daha
heç bir kəs,
boynuna almadı,
qorxudan,
loğman olduğunu.
Şah da çarəsiz qaldı,
zalım olduğu qədər.

Yaxın...
bəlkədə,
uzaq bir eldə,
bir bağban yaşardı.
Dillər hekayəti,
Cənnət bağ-ormanı
var imiş.
Dünyanın hər təbibi
bu əfsuna baş çəkər,
məlhəm üçün çiçək,
yarpağ,
ot toplayarmış.
Hər zaman da:
- Allah qorusun!
– deyərlərmiş.
Çünki...
– Könlünün dərmanı
mənmiyim sənin?..
Sən isə...
yanan ürəyim...
nəfəsim...
səsim...
oxuyan...
danışan dilim.

Cənnətin...
güclü ovsunu olan
nəğmələr oxuyan
Bülbülü varmış...
Qeyri-adi bir çiçək...
İŞIQ.
İşıq adlı bu qız,
oxurkən,
çiçəklər açarmış,
gəzərkən,
qaranlıqlara
nur saçarmış,
kədərli olanda...
küləklər əsər,
şimşəklər bağırar,
yağışlar yağarmış.
Tanrı da,
qəmli olarmış.
Dünyanın nizamı
tam pozularmış.
Könlü şad olanda,
sadəcə,
isti rüzgarlar əsər,

narın,
şirin yağmurlar yağar,
sevinərlər...
İşıq qızla oynayarlarmış.
Yağışlar isladar,
isti küləklər qurudarmış,
İşıqın
rəngi qara saçlarını,
gümüş,
çiçək cismini.
Dəli ruhun oyadıb,
nəğmə oxudarlar.
Sevinci alaraq,
qəmi satarlar.
Beləcə yaşarlar.
Cənnətin Bülbülü
dillərə düşərək,
sirli sehiri,
Qızıl Saraya –
zalım Şaha çatar.

Və...
bir gün
cənnətin qapısını
çalarlar.

Bülbülü götürüb,
Qızıl Saraya -
Şaha apararlar.
Zalim Şah,
qarşısındakı
bu qeyri-adi
Çiçəyi görüb,
məftun olar
və deyər:
- Oğluma çarə tapsan...
səni,
taxt-tacımın
Günəşi bəyan edərəm.
Oxu!
Qız,
Cənnətindən
qoparıldığı zaman,
qorxudan dili tutulmuş...
mat-mat onlara
baxa qalmış.
Zaman keçdikcə,
zalım Şahın
səbri daralmış və
partlamış.

Bülbülü zindana atmış.
Və...
Zindan Cəhənnəmin
qara günləri
qəlbini sıxaraq,
qızın ruhunu
göynətmiş.
Bir gecə...
yuxu görmüş o...
– Alatoran gecənin
yanar bağrında...
bəyaz işıqların içində,
bəyaz da
ipək yataqda,
bir insan yatıb...
ruhu laməkan.
Onunla məsafəsi,
qırx bəyaz pərdə keçidi.

Qız, qəfil oyanmış.
Sübh erkən
ruhu için-için sızlamış,
göynəmiş.

Və qırıq-qırıq dinməyə...
nəfəsini...
səsini çıxarmağa,
oxumağa başlamış.
Oxuduqca...
ürəyinin yanqısından,
alışan cisminin atəşinin,
nəfəsinin,
səsinin
sirri-sehrindən
zindanın zülmeti
ağ nura boyanıb,
kabus daşı,
divarı
əriməyə başlamış...
damla-damla.
Dəmir,
daş qapıları
ixtiyarsız açılmış.
Və...
Qız zindanı
addım-addım
tərk edib,

daş pillələr yuxarı,
ürəyinin yanqısının
çəkdiyi yerə doğru
getməyə baş almış.
Yol boyu...
işıqlar
ayaqlarına tökülüb,
xəfif öpüşlərə qərq etmiş,
izlərinə baş qoymuş.
Və Sarayın Taxtına
çatınca,
qaş-daşa bürünmüş
Tacı yanınca,
qırx qatlı,
bəyaz pərdələr
görünmüş.
Qız nəğməsini
söylədikcə,
ovsunu
hər qatını
yarıb da keçmiş...
duman tək
sarayı dolaşan SƏSin

öz sehiri ilə...
bəyaz,
ipək yataqında
yatan Şahzadə
xəfif-xəfif tərpənmiş,
az sonra,
astaca gözlərini açmış.
Yerindən qalxmış.
Və...
Qırx bəyaz pərdənin
səddi söküldükcə,
ovsunlu o sima,
qıza doğru addımlamış.
Ağır-ağır,
sanki, Dənizdi...
dalğaları
bəm-bəyaz köpüklü...
...Səsin sehiri,
Şahzadənin
büsbütün
ruhunu zəpt edib,
tamam,
qəlbini özündən almış.

Və...
sonuncu pərdənin
səddi bitincə...
hər iki can...
üz-üzə gəlmiş və
işıq-işıqa qarışmış,
sanki.
Qız, Şahzadəni görüncə
susmuş,
lal olmuş,
            həmən.
Şahzadə isə...
yerə çırpılıb,
yenə də yatmış.
Sanki, əbədi.
Bu qəmli səhnəyə
şahid,
sarayın cümlə-əhlisi,
mat qalmış,
            daşlara dönmüş.
Lakin, şad olub,
sonra isə pərişan olan
zalım Şah,
qəfildən püskürmüş:

- Yandırın onu,
            bu İblisi!
            - demiş.
Və...
Edama
hazırlıq görülmüş,
oxuyan,
sonra susan,
sirli-sehirli qız,
zindandan
dar ağacına gətirilmiş,
etrafındakı tonqal
            yandırılmış.
Bu zaman...
yenə
Bülbülün ürəyi
            yanmağa başlamış.
Ruhunun göynəyincə...
nəfəsinin,
səsinin sehiri
damla-damla...
duman kimi axmağa,
edama,

meydana yığılan
külli insanların
qəlblərinə süzülərək,
            kəsməyə,
köz etməyə başlamış.
Və ağrısı,
nəfəs-nəfəs
əllərini uzadıb,
bəyaz,
ipək yatağında yatan
Şahzadənin
            nurlu üzünü,
gözlərini xəfifcə öpərək,
gəzərək,
            ürəyinə axmış.
Və...
Bu acıdan
Şahzadə qəfil oyanmış,
az sonra,
            ürkəkcə
yatağını tərk etmiş.

Qırx pərdənin
amansız səddini yarıb,
ağrıyan qəlbini
çəkənə doğru
can atmış.

Hə, bu qeyri-adi,
sirli-sehirli qız,
onun -
Şahzadənin ruhu imiş.
            Oyadan, yaşadan.
...Sən mənim...
Mən sənin...
məlhəmim...
            məlhəmin.

Və...
Meydana çatanda...
Artıq,
edamın
tonqalı yandırılaraq,
alovu
dil-dil danışırdı da:

- Sevgi...
Cənnətin yox,
Cehennemindir.

...Şahzadə
məşhərin dilin anınca,
özünü
atəşin içinə atmış.
Qızı,
alovlardan qoparıb,
bağrına almış.
...***Sən mənim məlhəmim...***
mən sənin nəfəsin.
Alovların
amansız yanqıları içindən
onu alıb qurtarmış.
Bu İlahi sevginin qüdrətindən
bir cüt Göyərçin səmadan enərək,
tonqalın bütün cəhənnəm
alovlarını söndürmüş.
Şahzadə və qızin
ətrafına dolanaraq
onları qorumağa başlamış.

Şah etdiyi əməlindən
peşiman olmuş.
Hər iki İşıqı...
taxt-tacının varisi etmiş.
O zamandan bu İlahi Sevgi...
Yerin
bütün iblis əməllərindən
uzaq olmuş.
Tanrı hər zaman
onları qorumuş.
Onları qoruyan Göyərçinlərdir.

ARBS.
21-22.04.2016.

SƏN...

Al yaşıl xalılar sərdim yollarına...

Getmə uzaqlara...
başqa yerlərə.
Yaratdıqlarımı
itirmə,
qoru və
mənim ol.
Mən səni
qoruyuram...
...zamanın hər acısından –
tufanından,
dumanından,
yağışlarından,
küləklərindən.
Getmə uzaqlara.
Bu Qələm,
mürəkkəbi sənindir.
Yaratdığı bağları,
baxçaları sənin.

Becərdiyim
bütün çiçəkləri,
yarpaqları sənindir.
Çəmənləri,
çeşmələri sənin.
Bu dünyada
hər ecazkar gözəllik,
sənin.

Sevgini sənlə
hiss edən,
sənlə tanıyan,
sənlə dadan
bu mən də sənin.
Sən …nin.

ARBS
30.04.16.

ƏFSANƏ...

Sevgiyə qarşı çıxmaq günahdır!

ƏFSANƏ...

İki sevən qovuşanda... dünyada sülh-əminamanlıq olur.
Çünki, Sevgi Tanrı İşığıdır!

ƏFSANƏ

ARBS
Tarixi Araşdırmalar

Bakı, 2018